2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 21 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 26 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilərdə 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzvlüyünə namizədlər İsmayılov Asəf Pənah oğlu, Mirzəyev Abuzər Miri oğlu, Cavadov Təyyar Cavad oğlu, İsmayılov Rafiq Manaf oğlu, Məmmədov Nadir Murad oğlu, Hüseynov Dilavər Mədət oğlu və Vəliyev Əlləddin İmaməli oğlu səsvermə günü Ağdaş bələdiyyəsində yerləşən 9 və 11 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini, 8 və 10 saylı seçki məntəqələrində isə məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokollarında saxtakarlığa yol verildiyini iddia edərək müvafiq tədbir görülməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 21 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzrə qeydə alınmış namizədlər İsmayılov Asəf Pənah oğlu, Mirzəyev Abuzər Miri oğlu, Cavadov Təyyar Cavad oğlu, İsmayılov Rafiq Manaf oğlu, Məmmədov Nadir Murad oğlu, Hüseynov Dilavər Mədət oğlu və Vəliyev Əlləddin İmaməli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 21 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova.